THE ROLE OF THE FAMILY IN THE FORMATION OF PERSONALITY

Nigar Muradova[1]

UDC 159.9.
KBT 88.52

Keywords:

Psychological climate
Identity
Family system

ABSTRACT

The successful life and activity of each family, the health of family members depends on the psychological climate or psychological atmosphere in the family. If there is kindness, mutual respect, caress and love in the family, it means that there is a positive psychological climate.

Problems in the family are caused by the incorrect psychological climate in the family. Living and working in such a family becomes a torment. The upbringing of children in such families is not organized properly.

Gentleness, sincerity, love, care and mutual responsibility in family relations are the main conditions for the healthy growth and normal development of children physically and psychologically.

[1]. Azerbaijan State Pedagogical University
muradovanigar983@gmail.com
Received: 25.04.2021
Accepted: 07.06.2021

ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA AİLƏNİN ROLU

Nigar Muradova[1]
UOT 159.9.
KBT 88.52

Açar sözlər:

Psixoloji iqlim
Şəxsiyyət
Ailə sistemi

ANNOTASİYA

Hər bir ailənin uğurlu həyat və fəaliyyəti, ailə üzvlərinin sağlamlığı, ailədə qurulmuş psixoloji iqlimdən və ya psixoloji atmosferdən asılıdır. Əgər ailədə mehribanlıq, qarşılıqlı hörmət, nəvaziş və məhəbbət varsa bu müsbət psixoloji iqlimin olması deməkdir.

Ailə içində baş verən problemlər ailədə psixoloji iqlimin düzgün qurulmaması səbəbindən yaranır. Belə ailədə yaşamaq, fəaliyyət göstərmək əzaba çevrilir. Belə ailələrdə uşaqların tərbiyəsi düzgün qurulmur.

Ailədaxili münasibətlərdə mülayimlik, səmimiyyət, sevgi, qayğı və qarşılıqlı məsuliyyət uşaqların fiziki və psixoloji baxımdan sağlam böyüməsinin, normal inkişafının əsas şərtidir.

[1]. Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
muradovanigar983@gmail.com
Məqalə redaksiyaya daxil olmuşdur: 25.04.2021
Təkrar işlənməyə göndərilmişdir: 20.05.2021
Çapa qəbul edilmişdir: 07.06.2021

РОЛЬ СЕМЬИ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ

Нигяр Мурадова[1]

УДК 159.9.
КВТ 88.52

Ключевые слова:

Психологический климат
Личность
Семейная система

АННОТАЦИЯ

Успешная жизнь и деятельность каждой семьи, здоровье членов семьи зависит от психологического климата или психологической атмосферы в семье. Если в семье доброта, взаимоуважение, ласка и любовь, значит, есть положительный психологический климат.

Проблемы в семье вызваны неправильным психологическим климатом в семье. Жить и работать в такой семье становится мучением. Воспитание детей в таких семьях не организовано должным образом.

Мягкость, искренность, любовь, забота и взаимная ответственность в семейных отношениях - главные условия здорового роста и нормального развития детей физически и психологически.

[1]. Азербайджанский Государственный Педагогический Университет
muradovanigar983@gmail.com

GİRİŞ

Övladların şəxsiyyətinin formalaşmasında valideynlərin rolu əvəzolunmazdır. Uşaq doğulduğu andan valideynlərin statusu və ya şəxsiyyətindən, iqtisadi, siyasi və hüquqi mövqeyindən, peşəsindən, təhsilindən və s.dən asılı olaraq müəyyən ictimai mühitdə formalaşır. Ailənin maddi və mənəvi həyat səviyyəsində əmələ gələn kəskin dəyişikliklər şəxsiyyətin formalaşması şəraitinə bilavasitə təsir göstərir. Ailənin statusu bu və ya digər dərəcədə olduqda isə şəxsiyyətin ayrı-ayrı keyfiyyətlərinin möhkəmlənməsi üçün əlverişli şərait yaranır. Həyat şəraiti uşağa bilavasitə deyil, dolayı yolla – uşağın həyat şəraitinə münasibətindən asılı olaraq təsir göstərir.

Biz cəmiyyətdə başlayan müsbət dəyişiklikləri daha da inkişaf etdirib, möhkəmləndirmək üçün cəmiyyətdə yaşamağı bacaran, öz sözünü deməkdən çəkinməyən, müstəqil qərarlar verə bilən şəxsiyyətləri yetişdirməliyik. Bunun üçün ailələrimizdə olan körpələrə doğulduğu gündən biganə yanaşmamalıyıq. Uşaqlarımızı şəxsiyyət kimi istiqamətləndirmək üçün valideyn özü də müstəqil, savadlı, dərrakəli, düşüncəli olmalıdır.

Ailədə uşağın doğulması valideynlər və ailənin yaşlı üzvləri üçün fərəh mənbəyi, tamamilə yeni bir həyatın başlanğıcıdır. Ər və arvad valideyn olduqdan sonra ailədə psixoloji mühit dəyişir, ailədaxili münasibətlərdə övlad mərkəzi mövqedə durmaqla, ailə münasibətlərinin möhkəmlənməsi, qarşılıqlı məsuliyyətin yüksəlməsini şərtləndirir, ailənin eyni qayğıları meydana çıxır.

Ailəyə münasibətlər sistemi kimi baxış, 1950-ci illərin ortalarında psixoloq və sosioloqlar tərəfindən qəbul edilmişdir. Ailə sistemi deyərkən ailə üzvlərinin, başqa sözlə ana, ata, bacı qardaş, nənə, baba, xala, bibi, əmi, dayının bir-birilə münasibətləri nəzərdə tutulur. Ailə sistemi bir bütündür, tək-tək insanların toplumu olaraq düşünülməməlidir. Ailə içindəki üzvlərin bir-birinə təsiri mövcuddur. Ailə içindəki münasibətlər qatılaşmış rollara dayanırsa, özünəməxsus özəlliyi olmayan, bəlli kateqoriyalar içində dünyanı görən, qəliblənmiş mənlikləri olan fərdlər yetişir. Bu insanlar özlərinə spesifik bir həyat tərzi qurmaq üçün lazım olan enerjiyi, istəyi və cəsarəti özlərində tapa bilmirlər. Uşaqlarıyla dostcasına bir səviyyədə danışa bilməyən ana, uşaqlarına müstəqillik vermir, onların öz davranışlarında məsuliyyət daşımasına imkan vermir, ailə içindəki qatı rollara görə davranaraq, "ana" və "ata" rollarından qopa bilmirlər. Ailə içindəki münasibətlər sərtləşməmiş, duruma görə dəyişəbiləndirsə, daxili dünyası daha zəngin, dünyayı çoxölçülü görə bilən, tolerant fərdlər yetişir. Rolların dəyişkən olduğu ailələrdə həm ana, həm də ata vəziyyətə görə uşaqlarının dostu, müəllimi, sirdaşı, lazım olanda isə güclü bir avtoritet olurlar.

Hər bir fərd özünü təqdim edəndə, ailənin bütün düzənini yansıdır və əlverişli şərait yarandıqca öz bildiyi kimi bir ailə ortamı yaratmağa çalışır. Daha doğrusu bütün şərt və imkanları bildiyi ailə tipinə uyğun ailə yaratmaq üçün istifadə edir. Bu səbəblə atası alkoqolik olan qız, əsasən alkoqolik oğlanla evlənir və ya anasından emosional təcrid olunmuş, sevgi görməmiş oğlanlar, anaları

kimi duyğusal yöndən soyuq qadınlarla evlənirlər. İnsanların ehtiyaclarından başqa, ailənin də bir sistem olaraq ehtiyacları vardır. Məsələn, hər bir ailə sistemində, bir “ana” və bir “ata” ya ehtiyac vardır.

Atanın alkoqolikliyi səbəbiylə, ailə içində “ata” ehtiyacı ödənmirsə, dayı, əmi ya da böyük oğul bu rolu fərqində olmadan üstünə götürərək “ata” əksikliyini aradan qaldırmağa çalışır.

Ailə sisteminin önəmli ehtiyaclarından bəziləri aşağıdakılardır:

1. Dəyərli olma duyğusu. Ailə içindəki münasibətlər, uşaqları ya “mən dəyərliyə”, ya da “dəyərsizəm” duyğusuna götürür. Bu ehtiyac ailə içində yerinə yetirilməzsə, insan hər cür davranışla bu duyğuyu əldə etməyə çalışır. Gənc yaşda nigahdan kənar cinsi əlaqəyə girən qızların böyük əksəriyyəti “mən dəyrəliyəm, önəmliyəm” duyğusunu, bir kişi ilə cinsi əlaqədə olarkən bərabər olduqları zaman yaşadıqları ortaya çıxmışdır.

Yeniyetməlik dövründəki oğlan uşaqlarının çox zaman ölümdə nəticələnən davaları da, onları önəmli görməyən ailə ortamlarına reaksiya olaraq yozulur. “Mən dəyərliyəm” duyğusunu ailə içində əldə edən fərd, özünü təsdiq etməyə ehtiyac duymur.

2. Güvənli ortam. Ailə içində insanların təhlükəsiz olduğu, çöldəki təhlükələrin ailə icinə girməyəcəyi duyğusu bu ehtiyacın təməl səbəbidir. Güvənli mühit yaradılmazsa, ailə üzvləri güvən duyduqları başqa bir ortama yönələrlər. Məsələn, uşaqlar atalarının və analarının yanında özlərini güvən içində hiss etmirlərsə, daha güvən verici bir ortam yaradan baba, nənə, dayı və s.-nin qanadı altına girməyə yönəlirlər. Qadın ərindən güvən duyğusu almırsa, bu ehtiyacını ödəyən başqa birinə yönəlir. Kişi qadının yanında özünü güvən içində hiss etmirsə, bu duyğuyu verən başqa bir qadın ona daha çəkici gəlməyə başlayır.

3. Yaxınlıq və həmrəylik duyğusu. Ailə üzvlərinin bir-birilə həmfikir və güvən duyğusu içində olması, təməl ehtiyaclardan biridir. Ailə içində qarşılıqlı güvən duyğusu və həmrəylik varsa, ailədən kənarda insanın rastlaşdığı stressgətirici mənfi hadisələrin yıxıcı təsiri olmur. Güvən duyğusu üstün olan ailələrin ətrafın yaratdığı üzüntü və qayğılardan qurtulacaq bir ortamları olur.

Həmrəyliklə güvənin üstün olduğu ailələrdən gələn insanlar, bu inam və həmrəyliyi digər insanlarla olan münasibətlərində də göstərirlər. İnamsızlıq duyğusunun üstün olduğu ailələrdən olan insanlar, özləri də daxil heç kimin sözlərinə inanmazlar.

Bu insanlar heç kimin bir-birilə həmrəy olmadığını, hər kəsin bir-birindən mənfəət güddüyünü əsas fərziyyə olaraq irəli sürür.

4. Məsuliyyət hissi. Ailə sistemi içində ana və ata davranış və sözləriylə cavabdehlik duyğusunu ifadə edərlər. Ailə içində yalnız ana və ata deyil hər kəs məsuliyyət daşıyır. Uşaqlara öz yaşlarına uyğun məsuliyyət yüklənməlidir. Bütün məsuliyyəti öz üzərinə alan və uşaqlarını hər cür məsuliyyətdən azad edən ana-ata, öz həyatını formatlaşdırmağa aciz, daim başqalarının yönəltməsində olan fərdlər yetişdirirlər. Bu cür ailə içində yetişən fərdlər öz həyatlarında baş verən hadisələrdən özlərini deyil, başqalarını sorumlu tutarlar. Məsələn, məktəbdə müvəffəqiyyətli olmayan şagird, öz çalışma yöntəmlərini incələyib etdiyi səhvləri kəşf etmək, daha yaxşı yollar tapmaq əvəzinə, məktəbi və ya müəllimini günahlandıraraq, öz uğursuzluğunda məsuliyyəti üstlərindən atırlar.

İnkişaf mərhələlərinə uyğun bir balansda, uşaqlara öz yataqlarını səliqəyə salma, oturduqları otağı təmizləmə, ev işlərinə yardım etmə kimi tapşırıqlarla, öz həyatlarından özlərinin cavabdeh olmasını öyrətmək, ana-atanın edə biləcəyi ən sağlıqlı və önəmli vəzifələrdən biridir.

5.Çətinliklərlə mübarizə edərək onların öhdəsindən gəlməni öyrənmə. Uşağa hər şey hazır verilməməlidir. Uşağın inkişaf mərhələsinə uyğun olaraq çətinlik dərəcəsində problemlərlə uşağı baş-başa buraxmaq, onların özlərinin problemin həllinə çalışmasına imkan yaratmaq, özgüvənli, problem həll etmə bacarıqları inkişaf etmiş bir fərdlər kimi yetişmələri üçün lazımdır. Ailənin bütün ehtiyacları qarşılanmaması lazımdır. Qarşılaşdığı hər çətinlikdə uşağına yardım edən ana-ata, daim başqalarından yardım istəyən, öz bacarıq və qabiliyyətlərinə inanmayan fərdlər yetişdirirlər.

6.Xoşbəxtlik və özünü gerçəkləşdirmə ortamı. Ailə mühiti bir xoşbəxtlik ortamı olmalıdır. İndiyə kimi sadaladığımız ehtiyaclar qarşılandığı təqdirdə, ailə mühiti heç bir ortamda əvəz olunmaycaq xoşbəxtliyi təmin edər. Bir ana və atanın uşaqlarıyla qürur duyması, onların yaxşı və sağlam insanlar olaraq topluma qarışdıqlarını görməsi, böyük xoşbəxtlik qaynağıdır. Uşaqlar ana və atalarını dünyanın ən önəmli və qüdrətli insanlar olaraq görürlər. Uşaqların ana və ataları tərəfindən qəbul edilib, sevilib dəstəklənməsi, başqa heç kimin əldə edə bilməyəcəyi qədər, onları xoşbəxt və yaşamlarından qane edər.

Xoşbəxt ailə mühitində yetişən insanlar, başlarına gələn hadisələrin çoxunda xoşbəxt olunacaq bir yön tapırlar. Bədbəxtlik içində böyüyən uşaqları isə xoşbəxt edəcək hadisələrin sayı yox dərəcəsindədir.

7. Sağlam bir mənəvi həyatın təməllərini yaratmaq üçün mühit. Mənəvi həyat bütün dünyanı mənalı bir biçimdə bütövləşdirən bir dünya görüşünü təmsil edir. Qatı din qaydaları içində böyüyən uşaq ətrafdan bəzi qaydalara görə ya günahlandırılacağına, ya da mükafatlandırılacağına inanır. Bu cür yetişən uşaqlar dünyanı araşdırmaq yerinə, kor-koranə itaətli, öz düşüncə və duyğularından utanmağı öyrənirlər.

Bu cür ailə mühitində yetişən uşaqlar sadəcə özlərini deyil, bütün insanları günahlandırmağı, qınamağı öyrənirlər.

Sağlam mənəvi həyat bir ailənin yetişdirdiyi övladlarına verə biləcəyi ən gözəl hədiyyədir.

Sağlam bir mənəvi təməli olan insanlar gülərüzlü, sevgi dolu, insanlara və təbiətə saygılı fərdlər olaraq yaşayırlar.

Valideynin hər hərəkəti və ifadəsi uşağa "atam-anam mənə qiymət verir" hissini aşılamalıdır. İnsanın formalaşmasında ətrafdakı insanların münasibətinin yanaşma tərzinin rolu böyükdür. Belə olduqda uşaq cəmiyyətdə öz sözünü deməkdən çəkinmir və gələcəkdə müstəqil qərarlar verə bilir.

Valideyn çalışmalıdır ki, öz uşağı ilə dost olsun. Buna uşağın çox kiçik yaşlarından başlamaq lazımdır ki, yeniyetməlik yaşlarında ziddiyyətlər yaranmasın.

Hər şeydən əvvəl valideynlər övladlarını şərtsiz qəbul etməlidirlər. Bu o deməkdir ki, uşağı ağıllı, bacarıqlı, əlaçı, köməkçi olduğuna görə yox, ilk öncə var olduğuna görə sevmək lazımdır. Çox vaxt valideynlər uşaqlarına deyirlər ki, əgər tənbəlliyi, dalaşqanlığı tərgitməsən, yaxşı oxumağa başlamasan məndən heç nə gözləmə!" Sözsüz ki, bu heç də hər zaman nəticə vermir. Ümumiyyətlə, uşaqla nə qədər mehriban davransan, onu tərifləsən o daha da mehriban, anlayışlı olur. Əksinə, daha çox dalaşsan, tənqid etsən, uşaq bir o qədər zalım və vəhşi olur.

Nəticə

Psixoloqlar sübut ediblər ki, sevgiyə, məhəbbətə ehtiyac insan tələbatlarının əsasını təşkil edir. Uşağın bu tələbatını ödəmək, onu razı salmaq uşağın normal inkişafı üçün vacib şərtdir. Bu baxımdan uşağa tez-tez xoş sözlər deyilməlidir. Uşağı gündə bir neçə dəfə

qucaqlamaq lazımdır. Bütün bunlar onun emosional psixoloji inkişafını qidalandırır. Əgər uşaq məhəbbətdən, qayğıdan, diqqətdən məhrumdursa, onda psixoloji əsəb mənşəli problemlər yaranır. Əksər valideynlər uşaqlarla münasibətlərinə fikir vermirlər. Əslində isə, hər hansı bir münasibət və ya bir söz uşağa çox böyük psixoloji təsir göstərir. Beləliklə, valideynlər uşaqlarının normal abu-havada böyüməsini təmin etmək üçün bütün bunlara nəzarət etməlidirlər. Yalnız bu yolla biz gələcək nəslin sağlam psixoloji inkişafından bəhs edə bilərik.

ƏDƏBİYYAT SİYAHISI
(References)

1. Əlizadə Ə.Ə. Azərbaycan güzəran psixologiyası. Bakı: N.Tusi adına ADPU-nun nəşri, 1994.
2. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya I kitab. Bakı, 2010.
3. Əlizadə Ə.Ə. Əlizadə H.Ə. Pedaqoji psixologiya II kitab, Bakı, 2010.
4. Əliyev R. Psixologiya. Bakı, 2000.
5. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002.
6. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003.
7. Masaru İbuka. "Bağçada artıq gec olacaq". Fireside, 1980.
8. L.Əmrahlı. "Uşaq psixologiyası". Bakı, 2015.
9. Adem Güneş. "Çocuk eğitimində pozitiv iletişim". İstanbul, 2013.
10. Mücahit Öztürk. "Çocuk psikiyatrisi". İstanbul, 2007.
11. Немов Р.С. Психология. В 3-х томах. КН.М., 1998
12. Rüfət Hüseynzadə. Ailə pedaqogikası. Bakı, 2016.
13. Adem Durmuş. Çocukta öz güvən gəlişimi və xarakter egitimi.
14. Dr.David Burns. "Birlikdə iyi hiss etmək". Şubat 2019.
15. Doğan-Cüceloğlu. İçimizdəki çocuk. Kasım,